# Müalicəsi olmayan ermənilik xəstəliyi

Elə millətlər və insanlar var ki, onların xəstəliyinə heç bir dərman kömək etmir. Ermənilik xəstəliyi də məhz belə müalicəsiz xəstəliklərdən biridir. Neçə illərdir ki, ermənilərin ermənilik xəstəliyi sağalmaq bilmir. Sağalmaq qalsın bir yana, hələ bir az da mutasiyaya uğrayıb şaxələnir, formasını, xarakterini dəyişir.

Ermənilik xəstəliyinin virusunu yayanları da hamı tanıyır. Bu, tarixdə çoxlu qanlı izlər qoymuş "Daşnaksütyun" partiyasıdır. Bu partiya yarandığı vaxtdan erməni xalqının başına oyun açır, onları qırğına verir, qanını tökür. İstər "Daşnaksütyun" partiyasının üzvləri, istərsə də ermənilik xəstəliyinə tutulanlar tarixi vərəqləyib yazılanları oxusalar, keçmişdən nəsə bir dərs alarlar. Təəssüf ki, ermənilər tarixi oxusalar da, sağalmaq istəmirlər.

Başqa xalqların tarixçilərini, ədəbiyyatçılarını demirəm, ermənilik xəstəliyinə tutulmuş ermənilər heç olmasa öz liderlərinin yazdıqlarını oxusunlar. Təəssüflər olsun ki, tarixdən ibrət dərsi götürməyən erməni millətçiləri xalqlarının əlacsız mərəzini sağaltmaq əvəzinə, daha da artırırlar. Yaxşı xatırlayırıq ki, qatı millətçi ermənilər bu məqsədlə 2 sentyabr 2021-ci ildə Xankəndi şəhərində bir araya gələrək "Daşnaksütyun" partiyasının ofisini açmışdılar. Bununla göstərmək istəyirdilər ki, daşnaklar fəaliyyətlərini daha da genişləndirəcəklər. Deməli, yeni münaqişə ocaqları yaradacaq, yeni qanlar tökəcəklər. Görünür, 44 gün uğurla davam edən Vətən müharibəsində ordumuzdan aldıqları sarsıdıcı zərbələr ermənilərə azlıq etmişdi. Ona görə "Daşnaksütyun"un Qarabağda yeni ofisini açırdılar.

Əgər millətçilik xəstəliyinə tutulmuş ermənilər bir vaxtlar babaları olmuş Ovanes Kaçaznuninin 1927-ci ildə daşnak partiyası haqqında yazdıqlarını oxusaydılar, bəlkə də bu addımı atmazdılar. Daşnaklara bir daha xatırladaq ki, Ermənistanın ilk baş naziri olmuş Ovenes Kaçaznuni hələ 1927-ci ildə Tiflisin "Zakkınqa" nəşriyyatında çap etdirdiyi "Daşnak partiyasının yapacağı bir şey yoxdur" adlı kitabında erməni millətçilərinə, gələcək nəvə-nəticələrinə anlatmaq istəmişdi ki, artıq "Daşnaksütyun"un ideyaları iflasa uğrayıb, tarixin uçurumuna yuvarlanaraq məhv olub. Unudun bu axmaq xəyalları, yaddan çıxarın ağla sığmayan qan qoxulu düşüncələri. Ovanes erməni də olsa, gələcəyi görən imiş, bilən imiş. Yoxsa, bu cümlələri yazmazdı.

Amma nə edəsən ki, onun daşnak xisləti tör-töküntüləri babalarının yazdığı kitabları oxumayıblar, dediyi sözləri eşitməyiblər. Eşitsələr də, özlərini eşitməməzliyə vurublar. Əgər ermənilər babalarının yazdıqlarını oxusaydılar, görər və bilərdilər ki, Ovanes "Daşnak partiyasının yapacağı bir şey yoxdur" kitabına "Daşnaksütyun"un 1923-cü partiya konfransına ünvanladığı raportunun materiallarını toplayıb. Həmin raportda Ermənistanın ilk baş naziri aydın şəkildə ermənilərin diqqətinə çatdırır ki, Qarabağın Ermənistana heç bir dəxli yoxdur, bu ərazilər başdan-başa Azərbaycan bölgələridir, Azərbaycan torpaqlarıdır.

Bugünkü erməni separatçıları babalarının yazdıqlarına əməl etmirlər. Daşnakların bəlaları da elə buradan başlayır. Separatçıların babaları Ovanes həmin kitabda gələcək ermənilərə vəsiyyət də ünvanlayıb. Daşnakların mətbu orqanı olan "Apaç" qəzetinin 20 avqust 1920-ci il tarixli nömrəsində Ovanes Kaçaznuni ermənilərə müraciətlə yazır: "Əgər erməni xalqı öz varlığını qorumaq istəyirsə, rus deyil, türk yönətiminə sahib olmalıdır".




Erməni baş nazir kitabında çox aydın şəkildə onu da etiraf edir ki, öz varlığımızı davam etdirmək üçün zaman-zaman türklərlə ortaq anlaşmamıza ara verməməliydik: "...Biz indi-indi anlayırıq ki, 1920-ci ilin payızında türklərlə anlaşa bilsəydik, daha çox şey qazana bilərdik. Amma o zamanlar bunu anlamır, anlaya bilmirdik..."

Ovanes Kaçaznuni ötən əsrin 20-ci illərində qan qoxulu düşüncələrlə yaşayan daşnaklara anladırdı ki, "Ermənistanda öz gücünə söykənərək idarəçilik qura biləcək heç bir sivil təbəqə, partiya və yaxud qrup yoxdur. Ölkəmizdə bu idarəçiliyi, sadəcə xaricdən gələn yabancı bir güc təsis edə bilər".

Göründüyü kimi, ermənilər heç vaxt özlərinə arxayın olmayıblar. Həmişə ac qurd balası kimi ağızlarını gah Şimala, gah da Qərb tərəfə döndəriblər. Bu gün yenə də ermənilik xəstəliyinə tutulmuş daşnaklar çaş-baş vəziyyətdədirlər. Ağızlarını hansı tərəfə döndərəcəklərini bilmirlər. Eləcə ağızlarını açıb dayanıblar. Kim çörək atar-atar, kim pul verər-verər... Amma belə ağır vəziyyətdə olsalar da, daşnak xislətlərindən əllərini götürmürlər.

Ovanes ötən əsrin 20-ci illərində vandalizm daşıyıcısı olan "Daşnaksütyun" partiyasının sui-qəsdçiliyinə etiraz edərək yazırdı: "Siz ağızları qapamaq, həqiqəti danmaq, doğru fikirləri pərdələmək istəyirsiniz, ancaq öz gücünüzə inanmırsınız. Sizin qəlbləriniz qorxu, təlaş və tərəddüdlə doludur. Siz qorxaqsınız".

"Daşnak partiyasının yapacağı bir şey yoxdur" kitabının yazıldığı vaxtdan yüz il keçib. Amma ermənilər öz babalarının yazdıqlarına əməl etməyiblər. Əksinə, ermənilik xəstəliyinə tutulan ermənilər "Daşnaksütyun"un fəaliyyətini daha da genişləndiriblər.

Atalarımızın gözəl bir sözü var: "Sirkə nə qədər tünd olsa, öz qabını çatladar". Ermənilər nə qədər qızışıb ermənilik xəstəliyinə tutulsalar da, sonda özlərini qırğına verəcəklər. Separatçı və millətçiliyin qurbanına çevriləcəklər.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

azerbaijan-news.az

Azərbaycan.- 2024.- 4 aprel, № 69.- S.6.